# Türkiyə bu acı sınaqdan da şərəflə çıxacaq





## Sevgimiz məlhəmin olsun, qardaş Türkiyə!

**Artıq 4-cü gündür ki, Azərbaycan da qardaş Türkiyə ilə yanaşı, kütləvi ağrı, hüzn içindədir. Əli yanan ağzına təpər sayağı hər kəs bacardığını, əlindən gələni bir axara qoşur. Ölkəmiz, xalqımız dəhşətli və amansız zəlzələnin nəticələrini aradan qaldırmaq üçün bütün imkan və vasitələri ilə səfərbərdir.**

Minlərlə qardaş-bacımızın həlak olmasından, on minlərlə insanın ağır yaralanmasından doğan sonsuz kədəri hər kəs başsağlıqlarında ifadə olunan mənəvi borcu və maddi kömək hərəkatına öz payı ilə ovutmağa çalışır. Bugünlərdə yerdə-göydə qardaş ölkəyə yan almış yardım karvanları, bütün bölgələrdə davam edən izdihamlı yardımtoplama kampaniyaları Türkiyədə yaşanan ağrının məlhəmi olmaqla, bizə də azacıq təsəlli gətirir.

Çoxsaylı xilasedicilər heyətinin təcili fəlakət zonasına göndərilməsindən sonra daha 2 təyyarə operativ zəruri yardımları qardaş ölkəyə çatdırdı. Dövlət səviyyəsində irimiqyaslı yardımlar karvanı da Türkiyəyə yol alıb. Lakin bizləri canı qədər sevib "Can Azərbaycan!" deməkdən doymayan, bugünlərdə isə cismi də, ruhu da yaralanan, çox sayda can itkisi verən qardaş Türkiyəyə qovuşmaq, qəlbiqubar əzizlərimizin yanında olmaq duyğu-düşüncəsindən rahatlıq tapmırıq.

Özümüz o ağrılı, uçuq-söküklərin ağır yükü altında inləyən diyara yetişə bilməsək də sözümüz – təsəllimiz, başsağlığımız



informasiyanın quş qanadında o yerlərə çatıb mənəvi gücə, təpərə, təsəlliyə, ümidə, dözümə çevrilir.

Bu günlər 10 milyonluq bir ölkə bir ağızdan deyir: "Qardaş Türkiyə, sənin igid və qeyrətli oğulların ən çətin günlərdə Azərbaycan uğrunda ölüm-dirim savaşına çıxdığı kimi, biz də təbiətin bu sərt zərbəsi qarşısında sənin yanındayıq! Zəlzələ bölgəsində gecə-gündüz bilməyən xilasedicilərimizlə, min bir ehtiyacı cavablandıracaq yardımlarımızla, sonsuz sevgi-sədaqətimizlə.

Dünən qəzetimizin təmsilçiləri bu duyğu-düşüncələri bizə ən yaxın təsəlli ünvanına – Türkiyənin Azərbaycandakı səfirliyində yaradılmış ziyarət guşəsinə çatdırmaq üçün oradakı izdihama qatıldıq. Hüzn, ehtiram və qardaşlıq sədaqətimizi qızıl güllərin ətirli və sevgi saçan dili ilə ifadə etdik: "Başınız sağ olsun, yaralı-bəlalı qardaş-bacıllarımız! Möhkəm dayan, tarixlərin sınağından keçib gəlmiş dəyanətli türk xalqı!".

**"Xalq qəzeti"nin kollektivi**